**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**HÜSEYN ƏDALƏT oğlu XƏLİLOV**

# AİLƏDAXİLİ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ YAŞLILARIN ROLU VƏ ŞƏXSİYYƏTİN FORMALAŞMASINA ONUN TƏSİRİ

6107.01 – Ümumi psixologiya

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2018**

İş Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: pedaqogika üzrə elmlər doktoru,
professor **Hikmət Əbdül oğlu Əlizadə**

Rəsmi opponentlər: psixologiya üzrə elmlər doktoru,
professor **Elnarə İbrahim qızı Şəfiyeva**

psixologiya üzrə fəlsəfə doktoru
**Məhəbbət Abbas qızı Həsənova**

Aparıcı təşkilat: **Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrası**

Müdafiə "_____" "_____________" 2018-cı il saat___ da Bakı Dövlət Universitetinin nəzdində psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23, II korpus, auditoriya 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2018-ci ildə göndərilib.

FD. 02.014 Dissertasiya şurasının elmi katibi

psixologiya üzrə fəlsəfə doktoru,
dosent **Rəşid Vəkil oğlu Cabbarov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir dövrdə inteqrasiya meyillərinin artması və sosial-iqtisadi şəraitin dəyişilməsi cəmiyyət həyatına yeni dəyərlərin daxil olması ilə müşayət olunur. Bu dəyərlər özü ilə bir sıra müsbət məqamları gətirsə də neqativ hallar da qaçınılmazdır. Xüsusilə ailə münasibətlərində bu dəyərlər əvvəlki stereotipləri dağıdır, kiçikyaşlı münasibətlərində yeni cəhətlər ortaya çıxarır. Nəzərə almaq lazımdır ki, Azərbaycan ailələrində tarix boyu etnik-psixoloji cəhətdən ailədaxili münasibətlərdə və ailə üzvlərinin tərbiyəsində ciddi qərarların qəbulunda yaşlıların, o cümlədən nənə - babanın rolu böyük olmuşdur. Belə bir model ailənin monolitliyinin qorunub saxlanmasına ciddi təsir göstərirdi.

Statistika göstərir ki, müasir cəmiyyətdə boşanmalar, ailə konfliktləri, o cümlədən ailənin qorunub saxlanılması məsələləri son dövrlər daha da kəskinləşmiş və artım dinamikasına doğru meyillənmişdir. Qeyd olunmalıdır ki, yaşlıların ailədaxili münasibətlərə təsiri bir tərəfdən ailə üzvlərinin şəxsiyyət kimi formalaşmasına, digər tərəfdən isə ailədə psixoloji iqlimin yaxşılaşmasına hərtərəfli təsir göstərir.

Məlumdur ki, ailənin tarixi inkişaf istiqamətlərində ailəyə xas olan modellər həmin ailə mühitinə, onun dəyərlər sisteminə təsir göstərmiş, ailə üzvlərinin təlim-tərbiyəsində əsaslı rol oynamışdır. Ümumilikdə götürdükdə ailədaxili münasibətlər sistemində yaşlıların rolunun pozitiv tərəfləri danılmazdır. Lakin yeni şəraitdə müxtəlif amillərin, o cümlədən yeni dəyərlərin yaranması fonunda belə təsirlər zəifləməyə başlamışdır. Bu təsirlərin psixoloji mexanizminin öyrənilməsi müasir dövrdə bir neçə aspektdən xüsusi aktuallıq kəsb edir.

Əvvəla, ailədaxili münasibətlər sistemində yaşlıların rolu və onun ailə üzvlərinin şəxsiyyətin formalaşmasına təsiri məsələləri son dövrlərdə demək olar ki, sistemli tədqiq olunmamışdır. Belə bir vəziyyət cəmiyətdə mövcud olan yaşlılıq stereotiplərinin hansı səviyyədə olmasını və şəxsiyyətin formalaşmasına onun təsirini aydınlaşdırmağı zəruri edir.

İkincisi, yaşlıların sosial-psixoloji münasibətlərinin dəyişdiyi bir dövrdə onların ailə institutlarına təsiri, ailə modelində mövqeyi

və rolu müasir dövrün tələbləri baxımından kifayət qədər öyrənilməmişdir. Bu isə öz növbəsində yaşlıların, xüsusilə, nənə və babanın ailə üzvlərinin psixologiyasına təsirinin aydınlaşdırılmasını tələb edir.

Üçüncüsü, əhalinin əksəriyyətinin orta yaşdan yuxarı olduğunu nəzərə alaraq ailədaxili münasibətlərdə, şəxsiyyətin formalaşmasında, eləcə də milli-etnik adət-ənənələrin qorunub saxlanılmasında yaşlıların rolunun araşdırılması xüsusi zərurət kimi ortaya çıxır.

Bununla yanaşı yaşlılara hörmət edilməsi, onlara qayğı göstərilməsi, ailədaxili münasibətlərdə onların mövqeyinin azalması, eləcə də müasir Azərbaycan etno-psixoloji şəraitinin əvvəlki illərə nisbətən arxa plana keçirilməsi də işin aktuallığını bir daha diqqət mərkəzinə gətirir.Bütün bunları nəzərə alıb "Ailədaxili münasibətlər sistemində yaşlıların rolu və şəxsiyyətin formalaşmasına onun təsiri" mövzusunun tədqiqat obyekti kimi seçilməsini məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi.** Ailədaxili münasibətlər sisteminin öyrənilməsinə istər respublikamızda, istərsə də xarici ölkələrdə xeyli sayda tədqiqatlar həsr olunmuşdur. Bu tədqiqatlarda ailə konfliktlərinin motivləri, yaranma səbəbləri və onların aradan qaldırılması yolları araşdırılmışdır (E.Fromm, L.Y.Qozma, A.İ.Antonov, A.Q.Xarçev, D.B.Şneyder, V.V.Stolin, D.Mayers, R.Baymeyster, C.Uotman, K.Razbalt, C.Qottman, C.Kellerman, K.Tomas, R.Killmen, R.Kalinina, O.Karabanova, Y.Alyoşin, A.Sisenko, J.Polyakova, A.Tartakovski və b.). Bununla yanaşı ailədə rol davranışı, ailənin tipləri və funksiyaları da bu tədqiqatlarda təhlil obyektinə çevrilmişdir (M.Uisman, A.Dikson, V.Conson, A.Mid və b., o cümlədən, rus psixoloqlarından: A.Xarçeva, Q.Boqdanov, O.Karabanova, Z.Yankova, E.Kalmıkova, A.Kovalyova və b.). Həmçinin ailədaxili münasibətlər, ər-arvad uyuşmazlığı və münasibətləri, ona təsir edən amillər, nigahın möhkəmliyi də bir çox tədqiqatlarda araşdırılır (A.Volkova, L.Çuyko, N.Obozov, A.Obozova, N.Solovyev, V.Sisenko, E.Tiyt, A.Tavit, D.Kutsar və b.).

Respublikamızda da problemlə bağlı bir sıra tədqiqat işləri həyata keçirilmişdir. Belə ki, ilk ailə dərsliyi professor Ə.Ə.Əlizadə və A.N.Abbasovun müəllifliyi ilə ərsəyə gəlmişdir. Bundan başqa ailə problemlərinə aid çoxsaylı dissertasiyalar və elmi əsərlər

yazılmışdır. Bu sahədə Ə.Əlizadə, Ə.Bayramov, B.Əliyev, H.Əlizadə, A.Abbasov, K.Əliyeva, R.Qədirova, R.İbrahimbəyova, R.Əliyev, L.Suleymanova, L.Əliyeva, İ.Allahverdiyeva, A.Seydulla, K.Şiriyeva, S.Xəlilova, S.Əliyeva və başqalarının tədqiqatları movcuddur. Bu tədqiqatlarda ailənin mahiyyəti, funksiyaları, konfliktlərin aradan qaldırılması yolları, ailədə uşaqların valideynlərlə münasibəti, ailə dəyərləri və s. məsələlər öz əksini tapmışdır. Son dövrlərdə ailədaxili münasibətlərin bir sistem kimi öyrənilməsinə daha böyük əhəmiyyət verilir və bu istiqamətdə də bir sıra tədqiqatlar aparılmışdır. (İ.Polyakova, A.Menşova, O.Panova, İ.Bilim, Q.Bılım, R.Kalinina və b.). Bütün bu istiqamətli tədqiqatlara baxmayaraq ailədaxili münasibətlər sistemində yaşlıların rolu məsələsi sistemli təhlil olunmamış və müasir dövrün tələbləri baxımından ciddi araşdırılmamışdır.

**Tədqiqatın obyekti** ailədaxili münasibətlərin psixoloji xüsusiyyətləridir.

**Tədqiqatın predmeti** ailədaxili münasibətlərdə və şəxsiyyətin formalaşmasında yaşlıların roludur.

**Tədqiqatın məqsədi** ailədə qarşılıqlı münasibətlərin və şəxsiyyətin formalaşmasında yaşlıların rolunun və onların ailə münasibətlərinə təsirinin istiqamətlərinin müəyyənləşdirilməsidir.

**Tədqiqatın fərziyyəsi.** Ailədaxili münasibətlərin və şəxsiyyətin formalaşması ailədə  qarşılıqlı münasibətlərin xarakteri, ailə ənənələrinin istiqamətlərinin  təsir dərəcəsi ilə yanaşı, bu prosesdə yaşlıların fəal iştirakı ilə də şərtlənmişdir.

Əsas fərziyyəyə uyğun olaraq bir **fərziyyə də** götürülmüşdür:

- Üçüncü nəslin rolunun zəif olduğu və ya üçüncü nəslin olmadığı ailələrdə yeniyetmələrin özünüqiymətləndirməsi, üçüncü nəslin olduğu ailələrə  nisbətən qeyri-adekvatdır.

**Tədqiqatın vəzifələri.** Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün konkret vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- Problemlə bağlı müvafiq psixoloji, pedaqoji və fəlsəfi  ədəbiyyatı təhlil etməklə həmin məsələyə yanaşmanın nəzəri cəhətlərinin aşkar edilməsi;

-Yaşlı nəslin müasir ailədə qarşılıqlı münasibətlərdə rolu, onun ailə üzvlərinin formalaşmasına təsirinin müəyyənləşdirilməsi;

-Ailədə konfliktli situasiyaların, o cümlədən ailə üzvləri ara-

sındakı münasibətlərin yeniyetmələrin şəxsiyyət kimi formalaşmasında rolunun aşkarlanması;

- Ailədə böyüklərin təhsil səviyyəsinin yeniyetmələrin özünüqiymətləndirmə səviyyəsinə təsirinin aşkarlanması;
- Nəsillərarası qarşılıqlı münasibətlərdə baş verən münaqişələrin səbəbləri, onlara təsir edən amillərin müəyyən edilməsi və onların aradan qaldırılması yollarının müəyyən edilməsi.

**Tədqiqatın metodoloji əsasları və metodları.** Tədqiqatın metodoloji əsasını ümumi psixologiya və ailə psixologiyası sahələrində aparılan tədqiqatlar təşkil edir. Tədqiqatda Ə.S.Bayramovun və Ə.Ə.Əlizadənin metodoloji yanaşmalarına istinad edilmişdir. Bununla yanaşı A.Q.Xarçevin, D.B.Şneyderin tədqiqatlarının müddəalarından istifadə olunmuşdur. Tədqiqat 381 ailə arasında aparılmışdır. Bu ailələrdən 144-ü üçüncü nəsillə birlikdə yaşayanlardır. Tədqiqatın eksperimental-praktik istiqamətini həyata keçirmək üçün özünüqiymətləndirmə şkalasından, Karelinin "Ər-arvadın konfliktli situasiyalarda münasibətlərinin xarakteri" testindən və anket sorğusundan istifadə olunmuşdur. Toplanmış məlumatlar statistik təhlil edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Əvvəlki tədqiqatlardan fərqli olaraq bu tədqiqat işində Azərbaycan ailəsində ailədaxili münasibətlərin psixoloji səviyyəsi öyrənilmiş, yaşlıların ailə daxili münasibətlərə, o cümlədən yeniyetmələrin özünüqiymətləndirməsinə təsir dərəcəsi aşkar edilmiş, bu sahədə aparılmış tədqiqatlar sistemləşdirilmişdir.

Bununla yanaşı **bu işdə:**

- Ailələrdə konfliktli situasiyalarda ər və ya arvadın passiv davranış təzahürlərinin dominantlıq təşkil etdiyi aşkarlanmış, hər bir fərqli sfera üzrə orta göstəricinin mənfi olduğu müəyyən edilmişdir.
- Aşkar olundu ki, konfliktli situasiyalarda mənfi düşüncəli passiv davranışların mövcudluğu ailədaxili münasibətlər üçün əsas göstəricilərdən biridir.
- Müəyyən edilmişdir ki, üçüncü nəsillə birgə yaşayan yeniyetmələrin özünüqiymətləndirmə səviyyəsi, üçüncü nəsillə yaşamayan yeniyetmələrə nisbətən daha yüksəkdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Ailədə böyüklərinin təhsil səviyyəsi ilə yeniyetmələrin şəx-

siyyətin formalaşması arasında əhəmiyyətli korrelyasiya əlaqələri var və bu əlaqələr müsbətdir.

- Ailədə böyüklərin təhsilin səviyyəsi artdıqca nisbət olaraq daha çox yeniyetmə adekvat və ya yüksək səviyyəli özünüqiymətləndirmə göstəricisinə malik olur.

- Yeniyetmələrdə şəxsiyyət keyfiyyətlərinin, o cümlədən özünə inamın formalaşmasına ailədaxili konfliktli situasiyaların və bu zaman valideynlərin davranışının əhəmiyyətli təsiri vardır. Konflikt situasiyalarında bu təsirlər daha çox neqativ keyfiyyətlər formalaşdırır.

- Yaşlıların ailə münasibətlərində və şəxsiyyətin formlaşmasında rolu nəzərə alınarsa, ailədaxili münasibətlərin harmoniyası təmin olunar.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Ailədaxili münasibətlər sistemində yaşlıların rolu və şəxsiyyətin formalaşmasına onun təsiri mürəkkəb sosial hadisə olduğuna görə, əldə olunmuş nəzəri müddəalar ümumi psixologiyanı və ailə psixologiyasını yeni elmi biliklərlə zənginləşdirir. Bununla yanaşı əldə olunmuş nəticələr ümumi psixologiyada yeni elmi istiqamətlərin yaranması üçün zəmin hazırlayır, ailədaxili münasibətlərin tənzimində metodik tövsiyələrin hazırlanmasına zəmin yaradır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatdan əldə olunan nəticələr ailə münasibətlərinin tənzimlənməsində, həmçinin sosial psixologiya, ümumi psixologiya və ailə psixologiyası və s. kimi fənlərin tədrisində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiyanın əsas məzmunu, başlıca müddəa və tövsiyələri ADPU-nun psixologiya kafedrasının elmi seminarlarında, gənc tədqiqatçıların elmi konfranslarında məruzə olunmuş, müzakirə edilmiş, bir neçə elmi məqalə və məruzə tezisləri şəklində çap olunmuş və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın quruluşu.**Tədqiqat işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri və

praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilmiş, aprobasiyası və işin quruluşu göstərilmişdir.

Dissertasiya işinin **"Problemin nəzəri məsələləri və tədqiqi istiqamətləri"** adlanan I fəsli üç yarımfəsildən ibarətdir. Dissertasiya işinin I fəslinin birinci yarımfəsli "**Ailədaxili münasibətlərin tədqiqinin nəzəri-tarixi məsələləri**" adlanır. Bu yarımfəsildə problemin tarixi kontekstdə tədqiqi istiqamətləri,ailə problemlərinin təsviri və ailənin cəmiyyətdə rolu diqqət mərkəzinə gətirilir. Burada qeyd edilir ki, ailə və ailədaxili problemlər "Kitabi-Dədə Qoqud" eposunda, N.Gəncəvinin, M.Füzulinin, N.Tusinin, S.Urməvinin və b. əsərlərində öz əksini tapmışdır. Burada ailənin cəmiyyətdə rolu yüksək qiymətləndirilmiş və ailə şəxsiyyətin qurulmasında mühüm sosial institut kimi təsvir edilmişdir. Bu yarımfəsildə E.Fromm, L.Y.Qozman, A.İ.Antonov, A.Q.Xarçev, D.B.Şneyder, V.V.Stolin və b. tədqiqatları təhlil olunmuş, ailədaxili münasibətlər şəxsiyyətin və cəmiyyətin qarşılıqlı əlaqəsi kontekstində öyrənilmişdir. Bu yarımfəsildə həm Azərbaycan, həm də xarici ölkə psixoloqlarının ailə münasibətləri haqqında baxışları təhlil olunmuş, aparılmış tədqiqatlar sistemləşdirilmişdir.

Dissertasiya işinin I fəslinin ikinci yarımfəsli **"Azərbaycan ailəsinin formalaşmasında etnik-psixoloji xüsusiyyətlərin rolu"** adlanır. Bu yarımfəsildə əsasən tarixi-etnoqrafik tədqiqatlar (Q.Qeybullayev, H.Həvilovun, N.Quliyeva), etnik- psixoloji tədqiqatlar müqayisəli şəkildə təhlil olunmuşdur. Həmçinin etnopsixoloji kontekstdə ailə problemini tədqiq etmiş Azərbaycan psixoloqları Ə.Bayramov, B.Əliyev, Ə.Əlizadə və R.Əliyevin işləri təhlil olunmuşdur. Burada əsas məqsəd Azərbaycan ailəsinin ümumspektral etnopsixoloji xüsusiyyətlərini ortaya çıxarmaq və bu zəmində ailədaxili münasibətlər çərçivəsində eyni və fərqli nəsillər arasında inkişafa götürəcək optimal ünsiyyət modelini işləyib hazırlamağa cəhd edilmişdir.

Qeyd edilir ki, Azərbaycan ailələrində bir neçə nəsil bir arada yaşayır və yaşlılara qarşı daim bir sevgi və hörmət mövcuddur. Atadan oğula keçən bu mədəni miras cəmiyyətin bütün təbəqələrində özünü hiss etdirir. Bu dəyərlər arxetiplər kimi bütün nəsillərarası münasibətlərdə özünü göstərir. Belə ki, hələ tarixi abidəmizə çevrilən «Kitabi-Dədə Qorqud» dastanında xalqın etnik-psixoloji xüsusiyyətlərini özündə birləşdirən dəyərlər və onların şəxsiyyətin

formalaşmasına təsiri məsələləri ön plana çıxarılmışdır. Dastanda ailə münasibətləri özünün psixoloji çalarları ilə vəhdətdə verilmişdir. Bu yarımfəslində «Kitabi-Dədə Qorqud» dastanına istinad edərək qeyd edilir ki, «Kitabi-Dədə Qorqud»da insanın ölümə qarşı üsyanı, tale qarşısında acizliyi, yalnız məhəbbətin ölümə qalib gəlməsi motivi də güclüdür. Burada islam dininin yaşlı insana hörməti, rəğbətinə önəm qeyd olunmuş, tarixi abidəmizə çevrilən «Kitabi-Dədə Qorqud» dastanında xalqın etnik-psixoloji xüsusiyyətlərini özündə birləşdirən dəyərlər və onların şəxsiyyətin formalaşmasına təsiri məsələləri geniş şəkildə öz əksini tapır.

Dissertasiya işinin I fəslinin üçüncü yarımfəsli **"Yaşlılıq dövrünün psixoloji xarakteristikası"** adlanır. Bu yarımfəsildə yaşlılıq dövrünün psixoloji xüsusiyyətlərini müəyyən etmək üçün bu problemə həsr olunmuş tədqiqatlar diqqət mərkəzinə gətirilir, ayrı-ayrı tədqiqatlar müəyyən meyar əsasında sistemləşdirilir.Bu yarımfəsildə E.Eriksonun doğumdan ölümə qədər olan insan həyatının mərhələləri təhlil edilmiş, onun son pilləsini təşkil edən "ümidsizliyə qarşı şəxsiyyət bütünlüyü" mərhələsi daha çox diqqət mərkəzinə gətirilimişdir. Yaşlı insanların düşüncə qabiliyyətində və ruhi xüsusiyyətlərində baş verən dəyişikliklərlə bağlı da çox sayda araşdırmalar aparılmış və müxtəlif nəticələr əldə edilmişdir. Məsələn, Blum, Jarvik, Klark, Qren, Schaieve, Neuqarten kimi tədqiqatçılar yaşlı insanın zehni baxımdan qocalmadığı, yaşlılıq mərhələsinin insanın zehni baxımdan qocalıb tamamilə geriləmə dövrünə düçar olduğu bir mərhələ olmadığı, təcrübə və öyrənməyə söykənərək toplanılmış zəkanın yaş irəlilədikcə artdığı qənaətindədirlər.

Qeyd olunmalıdır ki, yaşlılıq prosesini istər sosial, istər psixoloji və istərsə də bioloji istiqamətdə araşdıran herontologiya elmi inkişaf etdikcə yaşlıların həyat tərzi, yaşlı nəslin cəmiyyətdə rolunun araşdırılması ilə bağlı tədqiqatlara daha çox zərurət yaranmış, yeni ageism («eygizm») və ableism («ableizm») kimi terminlər meydana çıxmışdır. Ageizm terminini ilk dəfə amerikalı Robert Butler işlətmişdir (1969). Butler (1980) gələcəkdəki sosial araşdırmalar üçün maraqlı olan ageizm termininin izahını belə vermişdir: «Ageizm bir-birinə sıx bağlı olan və eyni zamanda üç fərqli aspektdən ibarətdir: yaşlı insanların keçirdiyi yaşlılığa və qocalmaya qarşı çox zərərli yanaşmalar; yaşlı insanlara qarşı ayrı-seçkilik

vərdişləri; yaşlı insanların həyatdan zövq alma və həyat təcrübələrini nəzərə almayan sistematik təcrübə və vərdişlər».Butler yuxarıdakı amillərin hər birini yaşlılığı təbii proses kimi yox, yaşlı insanların əziyyət çəkdiyi sosial problem olaraq vurğulamışdır. Ümumilikdə götürsək ageizm yaşlı insanların daha az cəlbedici, intellektual və faydalı olması inancını əmələ gətirən mühakimələr və ayrı-seçkiliklər zənciridir.

Dissertasiya işinin **"Ailədaxili münasibətlər sistemində yaşlıların yeniyetmənin şəxsiyyətinin formalaşmasında rolu"** adlanan II fəsil 3 yarımfəsildən ibarətdir.Dissertasiya işinin II fəslinin birinci yarımfəsli **"Yeniyetmənin "Mənlik" şüurunun inkişafında nənə və babanın rolu"** adlanır. Bu yarımfəsildə qeyd olunur ki, ana ilə sıx emosional əlaqələrə malik olan uşaqlar idrak aktivliyi səviyyəsində soyuq münasibətlərə malik ailələrdə böyüyən və ya məktəbəqədər yaş dövründə analarını itirən yaşıdlarından daha yüksək nəticələr göstərirlər. Bu yarımfəsildə eyni zamanda bağlılıq keyfiyyəti və idrak aktivliyi arasında əlaqənin mövcudluğu problemlərinin nəzəri təhlili də öz əksini tapır. Yeniyetmələrdə mənlik şüurunun dərki, onların cinsə görə davranışları arasındakı fərq araşdırılır.

Bununla yanaşı qeyd edilir ki, yeniyetmə yaşında şəxsiyyətin formalaşması və formal təfəkkürün inkişafı proqramı J.İ.Piajenin, müasir cəmiyyətdə yaşlıların və uşaqların ayrıca müstəqil qrupları və yeniyetmələrin bu iki qrup arasında yerləşməsi, bunun doğurduğu psixoloji məqamlar K.Levinin, yeniyetməlik dövründə psixi funksiyaların müəyyən sistemdə fəaliyyət göstərməsi L.S.Vıqotskinin əsərlərində öz şərhini tapmışdır. Amerikan psixoloqlarının fikrincə, nənə-babaların funksiyaları adətən valideynlərin funksiyalarından fərqlənir və nəvələrinə qarşı onlarda fərqli bağlılıq münasibəti qurulur. Baba və nənələr nəvələrinə daha çox rəğbət göstərir, acıyır və simpatiya duyur. Onları nadir hallarda cəzalandırırlar. Bəzən bu münasibətlər canlılığı və açıqlığı ilə fərqlənir.

Dissertasiya işinin II fəslinin ikinci yarımfəsli **"Azərbaycan ailəsində yeniyetmələrin tərbiyəsinə etnik-psixoloji xüsusiyyətlərin təsiri"** adlanır. Bu yarımfəsildə uşaq şəxsiyyətinin formalaşmasında tərbiyənin roluna aydınlıq gətirilmiş, müxtəlif araşdırmalar və ədəbiyyatlarda yeniyetmələrin tərbiyəsinin psixoloji məqamları

ətraflı şəkildə təhlil edilmişdir. Burada insan əxlaqının tərbiyə nəticəsi olduğunu və insanda anadangəlmə olmadığı fikri daha çox vurğulanır, yunan filosofu Demokritin tərbiyə haqqında fikirləri də qeyd olunur. Onun fikrincə yaxşı tərbiyə insana üç bacarıq bəxş etməlidir: «yaxşı düşünmək, yaxşı danışmaq, yaxşı etmək».Bu anlayışların mahiyyəti ictimai tarixi prosesdə dəyişikliklərə uğraması baş verərsə, gələcək nəslin formalaşması zamanı bu tələblərin əldə edilməsinə istiqamətlənmiş ən müxtəlif təsir vasitələrindən istifadə edilmişdir. Bu istiqamətdə nəsihətlərdən başlayaraq nümunəvi obrazlar, şifahi və yazılı ədəbiyyat, incəsənət, şəxsiyyətlərdən örnəklər, müəyyən qadağalar, cəzalar, məşqlər, dərslər, təlimlər və s. təsir formaları həyata keçirilmişdir.

Burada həmçinin qeyd edilir ki, yeniyetmə dövrünün spesifikliyi onun iki– uşaqlar və yaşlılar – qrupları arasında yerləşməsi və bu baxımdan daim təzyiqlərlə üzləşməsidir. Yeniyetmə artıq uşaq qrupuna mənsub olmaq istəmir, yaşlılar qrupu isə onları qəbul etmir. Yeniyetmə meyillərinin aydın ifadə olunmuş ziddiyətliliyi bu yaş dövrü üçün xarakterikdir.

Dissertasiya işinin II fəslinin üçüncü yarımfəsli **"Ailədaxili münaqişələr zamanı yeniyetmədə yaşlıların qarşılıqlı münasibətlərinə təsir göstərən amillərin psixoloji təhlili"** adlanır.Bu yarımfəsildə münaqişələr, onların təsnifatı, xüsusiyyətləri və s. kimi məsələlər diqqət mərkəzinə gətirilir. K.Levinin bu sahədə apardığı tədqiqatlar xüsusilə seçilir. Məhz o, ilk dəfə münaqişəni neqativ və pozitiv olmaqla iki yerə ayırmışdır. K.Levinə görə münaqişə fəaliyyəti və münasibətləri inkişaf etdirirsə, bu funksional (pozitiv) münaqişə, fəaliyyət və münasibətlər pozulursa və onun inkişafına mane olursa, bu disfunksional (destruktiv) münaqişə hesab edilir. Psixoloqlar münaqişəli şəxsiyyətin dört tipini göstərirlər: demonstrativ tip, rigid tip, pedant tip, münaqişəsiz tip.

Bu yarımfəsildə qeyd olunur ki, müasir cəmiyyətdə geniş yayılmış konfliktlər sırasında ailədə nəsillərarası konfliktlər özlərinin kəskin xarakteri ilə diqqəti cəlb edir. Bu tip konfliktlər ailə konfliktlərinin xüsusi növü kimi valideynlərlə övladların qarşılıqlı münasibətlərinin xarakterinə əhəmiyyətli təsir göstərir. Ailədə nəsillərarası konfliktlər dedikdə adətən valideynlər və övladlar, babalar və nəvələr arasında baş verən qarşıdurma və toqquşmalar başa

düşülür. Bununla belə, ailədə müxtəlif nəsilləri təmsil edən yaxın qohumlar: «qaynana-gəlin», «xala-bibi», övladlığa götürülənlərlə himayəçilər, ögey ata-ana ilə övladlar arasında yaranan münaqişələr də bu qrupa daxil oluna bilər. Bir proses kimi konfliktin baş verməsində dörd əsas mərhələ nəzərdən keçirilir: obyektiv konfliktli situasiyanın meydana çıxması; obyektiv konfliktli situasiyanın dərk edilməsi; konfliktli davranışa keçid; konfliktin həlli. Bu yarımfəsildə əsasən, ailə konfliktlərin kompleks səbəbləri və bunların mənbəyində dayanan məsələlər tədqiq edilmişdir.

Dissertasiyanın III fəsli **"Ailədaxili münasibətlər sistemində yaşlıların rolu və şəxsiyyətin formalaşmasına onun təsirinin eksperimental-psixoloji tədqiqi"**nə həsr edilmişdir. Dissertasiya işinin III fəslinin birinci yarımfəsli **"Tədqiqatın təşkili prinsipləri və keçirilməsi"** adlanır**.** Bu yarımfəsildə tədqiqatın metodikası və təşkili məsələləri diqqət mərkəzinə gətirilir. Tədqiqat işində irəli sürülən fərziyyələrin təsdiqi və ya inkar edilməsi üçün məlumatlar riyazi-statistik təhlil edilmişdir.

Dissertasiya işinin III fəslinin ikinci yarımfəsli **"Alınmış nəticələrin şərhi"** adlanır**.** Tədqiqatda 13-15 yaşlı yeniyetmələr yaşadıqları ailə üzvləri ilə birlikdə götürülmüşdür. Tədqiqat zamanı yeniyetmələrin özünüqiymətləndirmə səviyyəsi müəyyən edilmiş  və əlavə olaraq təqdim olunan anket suallarına cavab vermişlər. Ata və ya ana Karelinin ərlə arvadın konfliktli situasiyalarda münasibətlərin xarakteri test suallarını cavablandırmışdır. Əlavə olaraq ata və ana onlara üçüncü nəsillə yaşayıb-yaşamamaqla əlaqəli təqdim olunmuş anket suallarına da cavab vermişdir. Üçüncü nəsillə birlikdə yaşanıldığı halda baba və nənə də anket suallarını cavablandırmışdır. Tədqiqat  381 ailə arasında aparılmışdır. Bu ailələrdən 144-ü üçüncü nəsillə birlikdə yaşayanlar, qalan 237-si yalnız öz ailələrindən ibarət olanlardır. 381 yeniyetmədən 360-ı hər iki valideyni ilə birlikdə yaşayır. 10 yeniyetmə anasız, 9 yeniyetmə atasız, 2 yeniyetmə isə hər iki valideyni olmayanlardır.

Üçüncü nəsillə birlikdə yaşayan yeniyetmələrdə isə statistika belədir: 144 yeniyetmənin 25-nin babası var, nənəsi yoxdur. Yeniyetmələrin 97-nin nənəsi var, babası yoxdur, 22 yeniyetmənin  isə həm babası, həm də nənəsi var. Qeyd edək ki, heç bir valideyni olmayan hər iki yeniyetmə üçüncü nəslin nümayəndələri ilə birlikdə

yaşayanlardır.

Tədqiqatda iştirak edən yeniyetmələrin 52%-ni və ya 198 nəfərini qızlar, 48%-ni və ya 183 nəfərini oğlanlar təşkil edir. İlkin olaraq yeniyetmələr arasında keçirilən testlərin və anket sorğularının nəticələrini təhlil etməyə çalışılmışdır.

Şəkil 3.1-dən göründüyü kimi yeniyetmələrin özünüqiymətləndirmə səviyyəsi üç paramestr üzrə dəyişir: aşağı, orta və yüksək. Əgər özünüqiymətləndirmə əmsalı 0,7-dən böyük olarsa özünüqiymətləndirmə yüksək, 0,4-dən kiçik olduqda isə aşağı hesab olunur. 0,4-0,7 aralığı orta səviyyədə özünüqiymətləndirmə hesab olunur. Belə ki, müvafiq olaraq oğlanların 35,5%-i, qızların isə 24,2%-də özünüqiymətləndirmənin  səviyyəsi aşağı olmuşdur. Orta və ya adekvat qiymətləndirmədə oğlanların 42,6%-də, qızların isə 56,5%-də müşahidə olunur.




*Şəkil 3.1. Yeniyetmələrdə özünüqiymətləndirmənin cinsi fərqlərə görə səviyyələrinin göstəriciləri*

Tədqiqat göstərdi ki, üçüncü nəslin olduğu ailələrdə yaşayan yeniyetmələrin özünüqiymətləndirmə səviyyəsi üçüncü nəslin olmadığı ailələrdəki yeniyetmələrin özünüqiymətləndirmə səviyyəsindən yüksəkdir. Demək olar ki, anket sorğusuna cəlb olunan hər üç yeniyetmədən birində özünüqiymətləndirmənin səviyyəsi qeyri-adekvatdır. Üçüncü nəslin olmadığı ailələrdəki yeniyetmə-

lərin 58,5 %-də özünüqiymətləndirmə səviyyəsi qeyri-adekvatdır. Üçüncü nəslin yaşadığı ailələrdə bu göstərici 45,8%-dir. Yüksək özünüqiymətləndirmə səviyyəsi üçüncü nəslin nümayəndələri ilə birlikdə yaşayan yeniyetmələrdə müşahidə olunmuşdur. Bu fakt göstərir ki, üçüncü nəsillə yaşayan yeniyetmələrdə şəxsiyyətin inkişafında problemlər özünü göstərmir. Çünki özünüqiymətləndirmənin yüksəkliyi və ya adekvatlılığı şəxsiyyətin inkişafının harmoniyasından xəbər verir.

Cədvəl 3.1-dən göründüyü kimi sorğuda iştirak edən üçüncü nəslin nümayəndələrinin birlikdə yaşadığı yeniyetmə sayı 144 olmaqla üçüncü nəslin nümayəndələrindən ayrı yaşayan yeniyetmələrin sayından 93 nəfər azdır. Buna görə də yuxarıda apardığımız təhlildən əlavə biz ayrıca olaraq üçüncü nəslin nümayəndələri ilə birgə və ayrı yaşayanlar nisbəti nəzərə alınmaqla 144-ə qarşı 144 yeniyetmənin göstəricilərini təhlil etməyə çalışdıq. Buna görə də təsadüfilik prinsipi diqqətə alınmaqla üçüncü nəslin nümayəndələrindən ayrı yaşayan 237 nəfər yeniyetmə arasından 144 nəfərin seçilib sayca bərabər olan üçüncü nəsli olan yeniyətmələrə müqayisə edildi.

Üçüncü nəslin yeniyetmələrin özünüqiymətləndirmə səviyyəsinə təsirinin göstəriciləri

Cədvəl3.1.

| | Cəmi | | r≤ 0,4 | | 0,4<r>0,7 | | 0,7 ≤ r ≥ 1 | |
|---|---|---|---|---|---|---|---|---|
| | n | % | n | % | n | % | n | % |
| Üçüncü nəsli olan | 144 | 100 | 45 | 31,33 | 66 | 45,8 | 33 | 22,9 |
| Baba var, nənə yox | 25 | 100 | 8 | 32 | 11 | 44 | 6 | 24 |
| Nənə var, baba yox | 97 | 100 | 31 | 31,9 | 43 | 44,3 | 23 | 23,8 |
| Hər ikisi var | 22 | 100 | 6 | 27,3 | 12 | 54,5 | 4 | 18,2 |
| | | | | | | | | |
| Üçüncü nəsli olmayan | 237 | 100 | 68 | 28,7 | 124 | 52,3 | 45 | 19 |
| | | | | | | | | |
| Ata var, ana yox | 8 | 100 | 4 | 50 | 2 | 25 | 2 | 25 |
| Ana var, ata yox | 5 | 100 | 2 | 40 | 3 | 60 | 0 | 0 |
| Hər ikisi var | 224 | 100 | 62 | 27,7 | 119 | 53 | 43 | 19,3 |
| Hər ikisi yoxdur | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 |

Qeyd: r≤0,4 özünüqiymətləndirənin aşağı səviyyəsini, 0,4< r>0,7 özünüqiymətləndirmənin adekvat səviyyəsini, 0,7≤r≥1 özünüqiymətləndirmənin yüksək səviyyəsini göstərir.

Tədqiqat göstərdi ki, üçüncü nəslin nümayəndələrinin ya çox aktiv, ya da çox passiv şəxsiyyətin formalaşması prosesində iştirakı ortaya çıxır. Adekvat qiymətləndirmədə yenə də üçüncü nəslin nümayəndələri olmayan yeniyetmələr nisbət olaraq üstünlük təşkil edir. Karelinin ərlə arvadın konfliktli situasiyalarda münasibətlərin xarakteri testindən istifadə etməklə biz tədqiqat obyekti olan ailələrdə potensial konfliktli situasiyalarda ailədaxili münasibətlərin konfliktlilik dərəcəsini müəyyənləşdirməyə çalışdıq. Tədqiqatda respondentlərə 32 konfliktli situasiyanı özündə əks etdirən eyni sayda sualdan ibarət sorğu təqdim olunur və hər bir sual üçün cavab olaraq şkalada təklif olunmuş ehtimal olunan reaksiyalardan hər hansı birini seçərək cavab verilməsi istənilir. Şkalada təklif olunan reaksiyalara əsasən qiymətləndirmə aparılarkən indekslər "-2"-dən 2-yə qədər dəyişir. Mənfi indeks respondentin konfliktli vəziyyətlərdə mənfi, müsbət indeks isə müsbət reaksiyasının göstəricisidir.

Fərqli sferalardakı ailə konfliktləri üzrə göstəricilər

Cədvəl 3.2.

| № | Bloklar | Nəticə |
|---|---|---|
| 1. | Dostlara və qohumlara münasibətlə bağlı problemlər | -0,3556 |
| 2. | Uşağın tərbiyəsiylə bağlı problemlər | -0,23889 |
| 3. | Avtonomluğa can atmaqla bağlı problemlər | -0,06806 |
| 4. | Rol gözləmələri problemi | -0,15903 |
| 5. | Davranış normalarının uyğunsuzluğu problemi | -0,01319 |
| 6. | Həyat yoldaşlarının birinin dominantlıq etməyə çalışması | -0,34306 |
| 7. | Qısqanclığın təzahürü problemi | -0,15694 |
| 8. | Pula olan münasibətlərdəki fərqlər | -0,34444 |

Cədvəl 3.2.-yə görə test nəticələrinə əsasən hər bir blok üzrə

orta göstərici hesablanır. “-1” və ya 1 indeksi göstərir ki, konfliktli vəziyyətlərdə respondent passiv xarakterli davranış nümayiş etdirir. Əldə olunan nəticənin “-2” indeksinə yaxın olması ailə münasibətlərinin daha çox konfliktli xarakter daşımasının göstəricisidir. Cədvəl 3.2-dən görünür ki, orta göstərici hər bir fərqli sfera üzrə mənfidir. Amma heç bir sfera üzrə orta göstərici “-1”-dən kiçik deyil. Ümumi orta konfliktlilik indeksi isə “-0.21”-ə bərabərdir. Bu isə konfliktli situasiyalarda mənfi düşüncəli passiv davranışların mövcud olduğunu təsdiq edir.

Konfliktlilik dərəcəsini fərdi ailə səviyyəsində götürdükdə isə ən yüksək konfliktli xarakterlilik 20 ailədə müəyyən olunmuşdur. Bu ailələrdə indeks “-2” ilə “-1” arasındadır. Konfliktli situasiyalarda mənfi düşüncə ilə passiv davranış (indeks -1 ilə 0 arasında) 252 ailədə, həyat yoldaşını dəstəkləyici passiv davranış 98 ailədə, müsbət aktiv dəstəkləyici mövqe isə cəmi 6 ailədə müəyyən olunmuşdur. Beləliklə, nəticələr ailələrdə konfliktli situasiyalar zamanı adətən ər və ya arvadın passiv davranış sərgilədiyini göstərir. Bununla yanaşı qeyd olunan iki testdən başqa əlavə anket sorğusundan da istifadə edilmişdir. Sorğular yeniyetmələr arasında, üçüncü nəsil olan ailələrdə ata və ana arasında və üçüncü nəsil olmayan ailələrdə valideynlər arasında keçirilmişdir.

Yeniyetmələr arasında aparılan bu anket sorğusu fərqli situasiyalarda yeniyetmələrin hərəkətləri qarşısında ailə böyüklərinin, xüsusən üçüncü nəslin nümayəndələrinin reaksiyası özünü göstərir.

Cədvəl 3.3-dən göründüyü kimi fərqli situasiyalarda ailə böyüklərinin uşaqların davranışlarına verdiyi reaksiyalar ilə bağlı anket sorğusundan əldə olunmuş statistik nəticələr təqdim olunmuşdur. Tədqiqat göstərdi ki, ümumi konteksdə baba və nənələrin davranışı yeniyetmələrin akademik nailiyyətlərinə ciddi təsir göstərir. Bununla belə, say olaraq fərqli reaksiyalar üzrə bərabər paylanma mövcuddur. Tədqiqat göstərdi ki, təhsil səviyyəsi yüksəldikcə nənə və babaların reaksiyası daha stimulverici və yüksək olur. Bu situasiyada ata və anaların reaksiyasında da fərqli bir paylanma mövcuddur. Yeniyetmələr dərslərindən əla qiymət aldıqda övladlarına qarşı ata və analar stimulverici formada davranırlar. Qeyd edək ki, anket sorğusu nəticələrinə görə yeniyetmə-

lərin əla qiymətlərini gəlib deməsi halında diqqətə almayan, heç bir stimuledici reaksiya göstərməyən valideynlərin əksəriyyəti təhsil səviyyəsi orta təhsilli olanlardır.

Yeniyetmələrin ən çox kiminlə zaman keçirməsinin təhlili göstərir ki, anket aparılan bölgələrdə yeniyetmələrin bir şəxsiyyət olaraq formalaşmasında ailə böyükləri ilə keçirilən zamanın əhəmiyyəti böyükdür. Burada üçüncü nəslin rolu da kifayət qədər ciddi əhəmiyyət daşıyır.

Fərqli situasiyalarda ailə böyüklərinin reaksiyasının göstəriciləri

Cədvəl 3.3.

| | Baba | Nənə | Ata | Ana |
|---|---|---|---|---|
| Dərslərinizdən əla qiymət alanda böyükləriniz necə reaksiya verir? | | | | |
| • Öpüb təbrik edir | 10 | 29 | 101 | 187 |
| • Sadəcə təbrik edir | 10 | 39 | 92 | 79 |
| • Mükafat verir | 10 | 20 | 97 | 41 |
| • Fikir vermir | 17 | 31 | 80 | 62 |
| Dərslərinizdən zəif qiymət alanda böyükləriniz necə reaksiya verir? | | | | |
| • Səhvini izah edir | 21 | 63 | 267 | 270 |
| • Cəzalandırır | 4 | 14 | 30 | 55 |
| • Müəllimi günahlandırır | 6 | 1 | 18 | 3 |
| • Fikir vermir | 16 | 41 | 55 | 41 |
| Ailə böyükləriniz sizin yalan danışdığınızı bilərkən necə reaksiya verir? | | | | |
| • Səhvimi izah edir | 17 | 45 | 203 | 262 |
| • Sözlə cəzalandırır | 9 | 33 | 78 | 54 |
| • Döyür | 1 | 1 | 16 | 23 |
| • Fikir vermir | 20 | 40 | 72 | 30 |
| Ailə böyükləriniz ailədən və ya ailədənkənar uşaqlarla düşən mübahisə zamanı necə reaksiya verir? | | | | |
| • Səhvimi izah edir | 20 | 40 | 197 | 208 |
| • Sözlə cəzalandırır | 11 | 38 | 82 | 61 |
| | 3 | 2 | 25 | 32 |

| | | | | |
|---|---|---|---|---|
| • Döyür<br>• Fikir vermir | 13 | 39 | 65 | 68 |

Şəkil 3.1-ə əsasən deyə bilərik ki, yeniyetmələrin uşaqlıq zamanlarında ən çox vaxt keçirdikləri ailə böyüyü ana olur. Nəticələrə əsasən təxminən yeniyetmələrin 40%-də uşaq vaxtı baba və ya nənəsi ən çox zaman keçirib. Bu nəticəni şəxsiyyətin formalaşması indeksi baxımından analiz etdikdə də olduqca ciddi olmasa da müəyyən dərəcədə üçüncü nəslin nümayəndələrinin aktiv vaxt keçirdiyi yeniyetmələrdə bu indeksin nisbətən daha yüksək olduğunu görmüş oluruq.




*Şəkil 3.1. "Uşaq vaxtı səninlə ən çox kim (kimlər) zaman keçirirdi?- sualına yeniyetmələrin cavablarının göstəriciləri*




*Şəkil 3.2."Validenlərinizin sizinlə birgə yaşamasına razısınızmı"?sualına valideynlərin cavabların göstəriciləri*

Şəkil 3.2-yə əsasən ataların 88%-i hesab edir ki, valideynlərinin onunla birgə yaşaması mütləqdir və onlara baxmaq onun borcudur. 7% atalar birlikdə yaşamağa cəmiyyətin qınağı səbəbindən razı olduğunu bildirir. Qalan 5% atalar isə valideynləri ilə

birgə yaşamağa razı olmadıqlarını bildirir.

"Siz bir qərar verməzdən əvvəl valideynlərinizlə məsləhətləşirsinizmi?" sualına isə ataların 72%-i "bəli, çünki onlar mənim valideynlərimdir", 10%-i" bəli, amma yenə öz bildiyimi edirəm", 15%-i "xeyr, mən artıq öz qərarımı verə bilərəm", digər 3%-i isə "xeyr, məncə, mənə yardım edə biləcək məsləhət verməzlər" deyə cavablandırıblar.




*Şəkil 3.3."Siz bir qərar verməzdən əvvəl valideynlərinizlə məsləhətləşirsinizmi? -sualına verilən cavabların göstəriciləri*

Şəkil 3.4-dən göründüyü kimi «Sizcə, övladınızın tərbiyəsində valideynlərinizin rolu varmı?» sualına cavab olaraq ataların 75%-i onların daha təcrübəli olduqları üçün müsbət təsirləri olduğunu, 12%-i bəli, amma müasir dövrə uyğunlaşa bilmədikləri üçün onların rollarının olmasını istəmədiyini, qalan 13%-i isə övladlarının tərbiyəsində valideynlərinin rolunun olmadığını bildirmişdir.

Üçüncü nəslin nümayəndələri ilə birlikdə yaşayan analara gəlincə, onların yoldaşınızın valideynləri ilə birgə yaşamağa razısınızmı?- sualına 77% razı olduğunu və səbəbinin də yoldaşının valideynlərini öz valideyni kimi gördüyünü bildirir, 7% cəmiyyət qınağı səbəbindən razı olduğunu, 16% isə razı olmadığını amma məcburən birlikdə yaşadığını bildirir.



*Şəkil 3.4. "Sizcə, övladınızın tərbiyəsində valideynlərinizin rolu varmı?- sualına verilən cavabların göstəriciləri*

Şəkil 3.4–dən göründüyü kimi "Övladınızın tərbiyəsində valideynlərinizin rolu varmı?" sualına cavab olaraq 61% analar daha tərcübəli olduqları üçün müsbət təsirləri olduğunu düşünür. 24% təsirin olduğu ilə razılaşır, amma üçüncü nəslin müasir dövrə uyğunlaşa bilmədiyi üçün təsirlərinin olmamasını istədiyini ifadə edir. Rəyi soruşulanların 15% isə təsirin olmadığı düşüncəsindədir.

Şəkil 3.5-dən göründüyü kimi övladınız barədə bir qərar verərkən qaynana və qaynataların müdaxiləsi və əgər müdaxilə edirlərsə, buna münasibəti soruşulduğunda isə anaların 48%-i müdaxilənin olduğunu və yaşlıların təcrübəsini nəzərə alaraq bu tip müdaxilələrə müsbət yanaşdığını, 24%-i müdaxilənin olduğunu amma əslində bununla razılaşmadığını bildirir. 28% halda isə müdaxilənin olmadığı bildirilmişdir.




*Şəkil 3.5. "Övladınız barədə bir qərar verərkən qaynana və qaynatanız sizə müdaxilə edirmi və əgər müdaxilə edirlərsə, buna münasibətiniz necədir?- sualına verilən cavabların göstəriciləri*

Bütün bunlarla yanaşı üçüncü nəslin nümayəndələrindən ayrı yaşayan valideynlərin anket sorğusuna verdiyi cavablar da təhlil edildi. Ayrı yaşamaqlarının səbəbi soruşulduğunda ataların 64%-i bunun valideynlərin öz seçimi olduğunu, bu səbəbdən ayrı yaşadıqlarını bildirmişdir. Rəyi soruşulanların 21% -i isə bu qərarın birlikdə verildiyini, 15% öz seçimi ilə ayrı yaşadıqlarını bildirib. Eyni sual analara ünvanlandığında isə 15% üçüncü nəslin nümayəndələri ilə yola gedə bilmədiyindən bunun öz fikri olduğunu, 85%-i isə bu qərarın yaşlı nəslin nümayəndələrinin öz qərarı ilə verildiyini bildirib.

"Ayrı yaşasalar belə, yeniyetmələrin tərbiyəsində üçüncü

nəslin nümayəndələrinin müdaxiləsi varmı?- deyə soruşulduğunda maraqlı nəticə ortaya çıxır. Anaların 24% -i yeniyetmələrin tərbiyə prosesində yaşlı nəslin nümayəndələrinin hər şeyə müdaxilə etdiyini bildirmişdir. Halbuki, böyük əksəriyyəti - 73% isə müdaxilənin olmadığını və onların bu işdə anaya güvəndiyini ifadə edir. Cəmi 3% analar müdaxiləyə doğru istiqamət göstərəcəklərini düşünmədikləri üçün icazə vermədiklərini vurğulamışdır. Üçüncü nəslin müdaxiləsi ilə bağlı göstəricilərdə doğru istiqamətin verilmədiyi bildirilir. Aparılmış tədqiqatların və keçirdiyimiz eksperimentin təhlili aşağıdakı **nəticələrə** gəlməyə imkan verir:

- Ailədaxili münasibətlər sistemində yaşlıların rolu və şəxsiyyətin formalaşmasına onun təsiri məsələləri müxtəlif istiqamətlərdə tədqiq olunsa da, ümumpsixoloji baxımdan və müasir dövrün tələbləri səviyyəsində sistemli tədqiq olunmamışdır. Bu sahədə aparılmış tədqiqatlar regional və kross - mədəni aspektdə olub özünün müxtəlifliyi ilə differensasiya olunur.
- Ailədə konfliktlər zamanı qarşılıqlı münasibətlərdə zorakılıq halları bir və ya dəfələrlə həyata keçirilməsindən, mütəmadi xarakter olmasından asılı olmayaraq uşaq şəxsiyyətinin inkişafına emosional-psixoloji, sosial-psixoloji cəhətdən təsir edir.
- Ailədə zorakılıq davranış forması kimi tsiklik xarakter daşıyır. Valideynlər tərəfindən qarşılıqlı münasibətlərdə özünü göstərən davranış tərzi uşaqlar tərəfindən mənimsənilir və belə davranışın yaranmasında uşağın şəxsiyyətinin inkişafına onun təsiri mühüm rol oynayır.
- Azərbaycan ailələrində konfliktli situasiyalar zamanı adətən ər və ya arvadın passiv davranış göstərdiyi aşkar olundu. Orta göstərici hər bir fərqli sfera üzrə mənfidir.
- Tədqiqat göstərir ki, yeniyetmələrin bir şəxsiyyət kimi formalaşmasında və onlarda şəxsiyyətin inkişafında ailə böyükləri ilə keçirilən zamanın əhəmiyyəti böyükdür. Burada üçüncü nəslin rolu da kifayət qədər ciddi əhəmiyyət daşıyır.
- Ailədə yaşlı nəslin nümayəndəsi kimi baba və nənənin yeniyetmələrin özünüqiymətləndirməsinin səviyyələrinin yüksəlməsinə təsiri böyükdür və təlim nailiyyətləri artdıqca stimulverici davranışlar daha tez-tez təkrarlanır.
- Ailə münasibətlərinin gənc nəslin tərbiyəsindəki rolunu

nəzərə alınmaması ailə tərbiyəsində yol verilən nöqsanlar içərisində xüsusi yer tutur. Bir sıra ailələrdə uşağa verilən mənəvi tələblərlə valideynlərin öz davranışları uyğun gəlmir.

Tədqiqat göstərdi ki, valideynlərin təhsil səviyyəsi yeniyetmələrin şəxsiyyət kimi formalaşmasına əhəmiyyətli şəkildə təsir göstərir. Belə ki, tədqiqat zamanı yüksək təhsilli ailə böyüklərinin daha çox tərbiyələndirici və tövsiyə verici metodlardan istifadə etdiyi və vəziyyətə diqqətlə nəzər yetirdiyi müşahidə olunur.

Dissertasiyanın əsas müddəaları **müəllifin** aşağıdakı **əsərlərində** öz əksini tapmışdır:

1. Uşaq və yeniyetmələrin inkişafının sosial-psixoloji məsələləri. Monoqrafiya. Bakı, 2011, 130 s.

2. Məktəbəqədər yaş dövründə həmyaşıd qrupunda özünü aktuallaşdırma və sosial statusun qazanılmasını şərtləndirən amillər // Journal Of Qafqaz University, Bakı, 2012, №33, s 115-121,

3. Случаи насилия при семейных взаимоотношениях иих влияние наразвитие личности ребенка // Теоретични и прикладны проблеми психологи, Киев, 2013, № 2 (31), с.213-223

4. Yaşlılıq və onun psixoloji xüsusiyyətləri // Pedaqoji Universitet Xəbərləri, Bakı, 2013, № 3, s 455-465.

5. Ailə münasibətlərinin yaranması və mahiyyəti // Psixologiya jurnalı, Bakı,2013, №3, s 14-21

6. Роль старшего поколения впроцессе социализации личности всемье // Вектор Науки Тольяттинского Государственного Университета, 2014, №1 (16) , с.202-205

7. Yaşlılıq dövründə ageizm problemi // Psixologiya jurnalı, Bakı, 2014, № 3, s.23-29,

8. Bağlılıq nəzəriyyəsi: uşaq şəxsiyyətinin formalaşmasında ana-uşaq münasibətləri // Pedaqoji Universitet Xəbərləri, Bakı, 2015, №2, s.368-372

9. Ailə tərbiyəsində yeniyetmələrin rolu / Gənc Tədqiqatçıların III Beynəlxalq Elmi Konfransı. Bakı: 2015, s.1359-1351

10. The Psychological Analysis of Factors Influencing the Development of Intergenerational Relationships in Family //International Journal of Science and Research (IJSR), Volume 5, Issue 9, 2016, pp. 188-193

11. Этническо-психологисеские особенности Азербайд-

жанских семей //Bakı Slavyan Universitetinin Elmi əsərlər. İctimai-siyasi elmlər seriyası, Bakı, 2016, №1, s. 284– 291

Huseyn Khalilov Adalet

**The role of adults in interfamily relations system and its effect on the personality formation.**

## SUMMARY

The thesis is devoted to the research of one of the actual problems of the modern problem- the role of adults in inter-family relations system and its effect on the personality formation. Without distinction of any kind such as nationality, language, religion, race, and gender, everyone needs to find his or her proper position in the society and to achieve his or her ideals. A family is an environment to which humankind worship and in which happiness and troubles can be shared. From this perspective, the theme is actual.

The thesis consists of the introduction, three chapters, the conclusion and the list of used literature.

The introduction focuses on topicality of the dissertation theme, definition of the aims, and objectives. It marks scientific novelty, theoretical and methodological importance, approbation, and structure of the research work.

The first chapter of the thesis, **"Theoretical Issues of the Problem and Its Implementation Directions",** is devoted to the investigation of theoretical issues and interfamily relations are introduced as the objective of the research. This chapter throws light on historical issues of family relations and comparative researches of foreign and local experts on this theme have been introduced.

The second chapter of the thesis, **"The Role of Adults on the Personal Development of Teenagers in Interfamily Relations System"** presents detailed information the effects of adults on personal development of teenagers  and attutudes of olds to their children in the ground of etnicity in Azerbaijan have been analyzed. The role of grandparents on the development of self-esteem notion has been touched as well.

The third chapter of the thesis, **"The Role of Adults in Interfamily Relations System and Its Experimental Psycho-logical Research",** introduces new and interesting results as a result of complex social and psychological methodology. It can be

understood that, third generation is very crucial alongside with old generation.

The conclusion summarizes the basic results of the research. It has been determined that grandparents have life principles and values. They compare, analyze and assess society and family values and other events with their own experience and strengthen their positions.

Гусейн Халилов Адалят оглу

**Роль пожилых  в системе внутрисемейных отношений и их влияние на формирование личности**

## РЕЗЮМЕ

Диссертация посвящена исследованию одной из актуальных проблем современности - роли пожилых в системе внутрисемейных отношений и их влиянию на формирование личности.

Чтобы занять достойное место в обществе, достичь высоких идеалов, сделать содержательной жизнь, каждый человек независимо от нации, религии, расы, и пола, нуждаетсяв тепле семейного очага. Семья для человека также духовная среда, где он может делить радость, печаль, горе, приятные моменты. С этой токи зрения тема весьма актуальна.

Диссертация состоит из введение, трёх глав, заключения и списка использованной литературы.

В первой главе «**Теоретические вопросы и направления исследования»** даётся анализ теоретических основ проблемы, внутрисемейные отношения превращаются в объект психологического исследования. В этой главе большое внимание уделяется историческим вопросам исследования семейных отношений, даётся сравнительный анализ, проведенный в этом направлении зарубежными и местными исследователями.

Во второй главе «**Роль пожилых в формировании личности подростков в системе внутрисемейных отношений»** исследуется влияние пожилых людей на формирование подрастающего поколения. Одновременно исследуются  этнические особенности отношения к подростковому возрасту  в азербайджанской семье. В работе  были затронуты вопросы, связанные с ролью бабушек и дедушек в развитие сознания подростков. А также в этом главе было уделено внимание изучению взаимовлияния представителей разных пололений друг на друга.

Третья глава называется "**Роль пожилых в системе**

**внутрисемейных отношений и экспериментальное психологическое исследование их влияния на формирование личности”**. В основе комплекса проведенных исследований были достигнуты интересные результаты, которые позволили сделать вывод, что в личностном формировании и развитии подрастающего поколения, наряду с родителями в семье, роль третьего поколения в достаточной мере имеет серьезное значение.

В заключительной части диссертации обобщаются результаты проведенных исследований, даются практические рекомендации. Было установлено, что у дедушек и бабушек, как представителей старшего поколения, есть уже сформировавшиеся жизненные принципы и ценности. Они сравнивают, анализируют, и оценивают общественные и семейные ценности, исходя из своего жизненного опыта, таким образом, превносят в семью свое понимание происходящих в окружающем мире событий.

Sifariş № 116, tiraj 100
“OPTiMiST” çap mərkəzində çap olunub.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ ЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ГУСЕЙН АДАЛЯТ оглу ХАЛИЛОВ**

# РОЛЬ ПОЖИЛЫХ В СИСТЕМЕ ВНУТРИСЕМЕЙНЫХ ОТНОШЕНИЙ И ИХ ВЛИЯНИЕ НА ФОРМИРОВАНИЕ ЛИЧНОСТИ

6107.01 – Общая психология

**А В Т О Р Е Ф Е Р А Т**

Диссертации на соискание ученой степени
доктора философии по психологии

**Баку - 2018**